BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2005*

# MƏHƏBBƏT VƏ QƏHRƏMANLIQ SİMVOLU

M.ASLANLI HUNTÜRK

Azərbaycan poeziyasının XVIII yüzillikdə yaşayıb-yaratmış söz ustadları arasında Məhcur Şirvaninin özünəməxsus yeri vardır. Ədəbiyyatımızın söz xəzinəsinə "Qisseyi-Şirzad" kimi epik-lirik poema, bir sıra qəzəl, mürəbbe, müsəddəs, müxəmməs, tərkibənd və s. kimi şedever sənət nümunələri bəxş etmiş şairin əsərlərində xalq yaradıcılığının güclü təsiri duyulur.

Klassik ədəbiyyatımızda öncül yeri olan Məhcur Şirvaninin "Qisseyi-Şirzad" poeması ictimai məzmunu, bədii keyfiyyəti və orijinal üslubu baxımdan Azərbaycan epik şerinin dəyərli bir nümunəsidir. Həmişəyaşar şair bu əsəri ilə Azərbaycan ədəbiyyatı xəzinəsinə öz təravət və rayihəsini heç zaman itirməyən bir sənət əsəri gətirmiş, habelə cəngavərliyin, ərdəmliyin möhtəşəm abidəsini yaratmışdır.

Məhcur Şirvani poeziyası dil və üslub cəhətdən bir sıra təqdirəlayiq xüsusiyyətləri ilə diqqəti çəkir. Zəmanəsinin dərin elmi dünyagörüşü, obrazlı təfəkkürü, zəngin sənətkarlıq mədəniyyəti olan şair öz bədii yaradıcılığında sözün ecazkar qüdrətindən və sehrindən məharətlə istifadə edə bilmişdir. Şair şerlərində qüvvətli təsvir vasitələrinə müraciət edərək ifadəni gözəlləşdirdiyi kimi, sözləri şerin misraları içərisində məna kəskinliyi və ahəngdarlıq cəhətdən yerli-yerində, məharətlə işlətməyi bacarır, habelə xətasız, oynaq qafiyələr yaradır. O, qəzəllərində məcazlardan daha geniş istifadə edir ki, bunların içərisində təşbeh və istiarələr onun şerlərinə ifadə gözəlliyi gətirdiyi kimi, məzmun zənginliyi də gətirmişdir.

Əsərdə eşq macəraları, vəfalı aşiq və məşuqələrin sədaqəti, vüsal həsrəti və s. yanaşı, fiziki tərbiyə motivləri, fiziki kamillik problemi, habelə müxtəlif döyüş səhnələrini əks etdirən parçalarda türk cəngavərlərinin rəşadət nümunələri, onların əfsanəvi bahadırlıq keyfiyyətləri də öz əksini tapır.

Şair bu oxunaqlı poemasında təşbeh və istiarələrdən savayı təzad, mübaliğə, cinas, təkrir kimi bədii təsvir vasitələrindən yüksək sənətkarlıqla istifadə etmişdir. Şübhəsiz ki, məqsədimiz şairin, poetik məziyyətlərinin araşdırılması deyil, burada fiziki tərbiyə probleminin öyrənilməsi əsas məqsədimizdir.

Əsərdə Səmərqənd şəhərinin hünərli, adil padşahı Ərdəşirin övladsızlığı barədə açıqlamalar verilir. Şahın qədərsiz kədərli tale-

yindən xəbərdar olub acıyan vəzirləri buna çarə qılmağa cəhd göstərirlər. Belə кi, vəzirlər saraya münəccimlər toplayıb məşvərət кeçirirlər. Padşaha məsləhət olunur кi, əgər Xəta şahının qızı ilə evlənərsə onun övladının dünyaya gələcəyi bildirilir. Bu minvalla кarvanbaşı Məhəmməd Səmərqənd padşahına Xəta höкmdarı Şah Şəmranın Şəmməbanu adlı qənirsiz bir gözəl qızı olduğunu deyir. Beləliкlə, tez bir zaman çərçivəsində yubanmadan padşaha adına layiq təmtəraqlı bir toy кeçirilərəк onu evləndirirlər.

Laкin övlad görməк həvəsilə şadyanalıqlardan başı ayılmayan Səmərqənd şahının tale üzünə gülməyir, tezliкlə xəstələnərəк ölüm yatağına düşür. Məmləкətin heç bir təbibi, tanınmış loğmanı onun mərəzinə əlac qıla bilmir.

Əcəli çatmış binəva padşah övladının həyata gəlişini ölümü ilə qabaqlayır və gələcəк yadigarının taleyini dönə-dönə vəzirlərinə tapşıraraq dünyasını dəyişir:

Onlar üçün eylədi vəsiyyət,
Hər birinə eylədi nə söhbət.
Arzum budur billəm mən, ey yar,
Ana bədənində bir uşaq var.
Ayə qız ola, ya ola fərzənd?
Dünyadə fəqir ola, hünərmənd?!
Əmr eylədi: - Ey vəziri – Aqil
Sən məsnədnişin ol yerimdə hasil
Gər oğlum ola onu edün şah,
Vəsiyyətimi eşit, ol agah,
Məndən sonra eyləyün məhəbbət,
Ta onda ola sizə çü şəfqət.
Bunu dedi dünyanı unutdi,
Üqbayə üzünü dutdu getdi...[1]

Dərin ehtiramla dəfn olunan şahın taxtına onun vəziri Kamil çıxır. Şan-şöhrət xəstəsi olan vəzir sabiq padşahına naxələf çıxaraq müxənnətliк etməyə başlayır. Xislətindəкi riyaкarlıq və rəzilliк işartıları onu xəbis davranmağa təhriк edir. O, şahın xanımını qətlə yetirməкlə həyata göz açacaq fidan çocuğu tələf etməк üçün fürsət axtarır.

Padşahın Aqil adlı sədaqətli digər bir vəziri, vəfa və etibardan uzaq olan Kamildən fərqli olaraq bu dəhşətdən xəbər tutur. Kamili belə şərəfsiz fiкirdən daşındırmaq üçün onu xəbərdar edir, əgər belə əmələ addım atacağı təqdirdə onun dəhşətli aqibəti barədə də məlumat verir. Laкin Aqilin xeyirxah məsləhətinin xəbis xislətli Kamil üçün faydası olmur. O, bu bəd əməli özü кimi qəlbi daş, insafsız Əsləm adlı birisinə həvalə edir. Əsləm isə hiylə işləyərəк Şəmməbanunu meşəyə apararaq vəhşicəsinə qətlə yetirir, zira onun təzə doğulmuş oğlunu öldürməyə macal tapmır.

Məhcur Şirvaninin poemada xalq əsatirlərinə söyкənən bəzi maraqlı epizodları həyatı reallıqlarla uyğun şəкildə əlaqələndirməк

[1] Məhcur Şirvani. Qisseyi-Şirzad. Baкı, "Gəncliк", 1985, səh.15-16.

məharəti əsərin bədii gücünü daha da artırır.

Kamil ilə Əsləm arasında məxfi saxlanan cinayətdən heç kimin xəbəri olmur. Şəmməbanunu axtarmaqdan zinhara gələn Aqil vəzir qətrə-qətrə göz yaşını axıdaraq şahın məzarına gedib dərdlərini danışıb rahatlıq, təskinlik tapmaq istəyir. Məzar üstündə Aqili yuxu tutur və şah vəzirə söyləyir ki, filan meşədə onun arvadını öldürüblər, lakin oğlu sağdır. Amma bir təcili ləl tapıb üstünə yazdır ki, bu uşaq Ərdəşir şahın oğludur, adı da Şirzaddır və Şəmran qızı Şəmməbanudan doğulubdur. Anasını Kamil vəzir filan yerdə qətlə yetiribdir. Həmin ləli uşağın qoluna bağlayıb anasını dəfn et, amma uşağı şəhərə gətirmə.

Qəflət yuxusundan oyanan Aqil vəzir şahın müdrik məsləhətlərini dərhal yerinə yetirir.

Əsərdə göstərilir ki, karvanla ticarətdən gələn Xacə Şəban adlı bir tacirin yolu həmin meşədən keçərkən körpə Şirzadı görüb bərk təəccüblənir. Meşədən tək-tənha qayıdan tacir hay-haray salır, tacirin təşvişlə qışqırığından şir qaçır və uşağı götürüb qafiləsində olan kənizə tapşırır. Nəhayət, karvan Kabil şəhərinə yetişir. Həmin Xacə böyük qayğı və məhəbbət göstərərək uşağı bəsləyib sağ-salamat böyüdür, oxudur, mükəmməl təhsil verdirir və sağlam vücuda malik, cüssəli bir oğul kimi həddi-buluğa çatdırır. Güc və qüvvədə həmyaşıdlarına örnək olur, çevik, diribaş və işgüzarlığı sayəsində ətrafdakıların hörmətini qazanır. İti zehni, dərin düşüncəsi və fəhm-fərasəti ilə fərqlənən bu gənc bazarda dükan açıb cəvahirat alveri ilə məşğul olmağa başlayır.

Əsərdə qeyd edilir ki, Kabil hökmdarı Zərrinin Xurşudbanu adlı gözəl bir qızı vardır. Bu səltənətin bütün gənclərini hüsnü-camalı və dərin ağlı, isməti ilə heyran edən həmin füsunkar gözəl sərvləri səmaya ucalan bir bağ içində tikilmiş xüsusi qəsrdə yaşayırdı. Hökmdar qızı bir gün təxti-rəvan üstündə gedərkən Şirzadı görüb bir könüldən min könülə ona aşiq olur. Bu hadisəni müşayiət edən dayə əhvalatı başa düşüb, qızı bu yoldan çəkindirməyə cəhd edir. Lakin mütəmadi olaraq saraya müxtəlif cürə ləl-cəvahirat, firuzə və gövhərlər gətirilməsini tapşıran Xurşudbanunun Şirzada olan məhrəm, isti münasibətləri aşiq və məşuqə şəklində tədricən məhəbbətə çevrilir.

M.Şirvani Şirzadın simasında öz səadəti yolunda fədakarcasına çarpışan cəfakeş, məğrur və igid bir qəhrəman obrazı yaratmışdır.

Şairin xarakterindəki mübarizlik, üsyankarlıq ruhu, həmçinin qəhrəmanlarının fədakarlığı və rəşadəti, fəaliyyətlərindəki prinsipiallıq görkəmli sənətkarın yaratdığı həmin poemanın ayrı-ayrı obrazlarında da qabarıq şəkildə öz əksini tapmışdır. Xalqının övladlarının fiziki yetkinlik zirvəsi kontekstində şücaətli bahadırlar tək tərbiyə olunmasını, onların basılmaz alplar kimi hünər göstərmələrini də fiziki kamillik müstəvisində verməsi də əbəs deyildir. Məhcur Şirvaninin yaratdığı əsərlərdəki bir sıra tiplər iti zəkası, parlaq təfəkkürü, ötkəm qürur və səbatlılığı ilə yanaşı, həm də fi-

ziki ustalıqları, mütəhərrikliyi, bir sözlə, hərəki bacarıq və vərdişləri ilə də fərqlənir. Onun fikrincə, mətinlik, əzmkarlıq, şücaətlik, qəhrəmanlıq rəmzidirsə, fiziki kamillik bilavasitə igidlik və bahadırlığı yaradan başlıca atributdur.

Şirzadın qüdrət mənbəyi alp-ərənlikdir. Qəhrəman həm mifik, həm də real qüvvələrlə mübarizə apararaq öz səadətinə yol açır. Şair əsərin baş qəhrəmanı Şirzadın misilsiz şücaətini, heyrətamiz güc və dözümünü, onun yenilməz bahadırlığı sayəsində ölçüyəgəlməz rəşadətini təqdir etməklə bərabər, onun sevgilisi qorxmaz, kişi qeyrətli Xurşudbanunun da hünər və cəsarətini qabarıq əks etdirir.

Özü şah qızı olduğu halda, adi bir sərraf oğluna aşiq olması, öz məhəbbəti uğrunda iradi əzm, xarakter və fədakarlıq göstərməsi həyatda azadlıq arzularının ifadəsini təzahür etdirirdi. Poemada göstərildiyi kimi Xurşudbanu sevgidə öz arzusuna, yəni mərd, qoçaq, fiziki cəhətdən kamil, pəhləvan şücaətli bir ərənə qismət olmasını tanrıdan diləyirdi. Və ilahi həmin istəyi də ona bəxş edir. Şah da öz müqabilində Şirzadın göstərdiyi yenilməz qəhrəmanlığın nəticəsi kimi qızını ona verir. Lakin Xurşudbanunun xarakter dönməzliyi, əqidə bütövlüyü, dərin məslək və amal sahibi olması, habelə qətiyyətliliyi və qeyrətliliyi ondadır ki, atasının onu verdiyi oğlanın öz sevgilisi olduğunu bilmədiyi anlarda keçirdiyi həyəcan və hətta qəti intihar etmək təşəbbüsü onun bir daha vəfalı, etibarlı nümunəvi bir türk xanımı olmağını, sədaqət və cəfakeş olmağının bariz ifadəsini əks etdirir.

Başdan-başa fiziki tərbiyə və qəhrəmanlıq motivlərini dolğun şəkildə əks etdirən əsərdəki hekayətlərin birində nəql edilir ki, bir gün Zərrin şahın əmri ilə məmləkətin ən möhtəşəm bir düzündə meydan qurulur. Meydana nəhəng bir şirlə yekə öküz buraxılır. Burada şir öküzü parçalayır. Bu dəm Şirzad özünü meydana atıb şirlə əlbəyaxa olur, div ürəkli, nər biləkli, darvaza kürəkli, çinar boylu oğuzun igid ərəni şiri boğub məhv edir. Poemada Şirzadın möhtəşəm gücü sayəsində zor hünər və əzəmət göstərən həmin cavan mərd oğuz igidi barədə deyilir:

Qızun atası, o şahi-Zərrin,
Qəsr üstə oturmuş idi təmkin.
Əmr eylədi çün quruldu meydan,
Meydanə yığıldı yaxşı-yaman.
Meydanə yığıldı bəzgərlər,
Oynamağa düşdü nazpərvər.
Ondan sonra şah götürdi bir şir
Bir yaxşı öküz misali-həmşir.
Hər ikisi oynadı oradə,
Şir öküzü etdi parə-parə.
Şir çəkənə sıçradı nə çarə?
İstərdi ki, başını qoparə...
Dutdu ayağını urdu yerə,
Urdu yerə şiri etdi parə.[1]

---

[1] Məhcur Şirvani. Qisseyi-Şirzad. Bakı, "Gənclik", 1985, səh.30-31.

Bu vaxt qəsrə böyük lərzə düşür. Hünəravər igidi görmək üçün tez camaat meydana yığılır. Şahın özü də əhvalatı təfsilatı ilə bilmək üçün qəsrə doğru gedərkən qeyri-ixtiyarı yerə yıxılır, onda Şirzad onu göydə tutub sağ-salamat saxlayaraq ona yardım edir:

Qəsr üstə oturmuş idi şah,
Çox eylər idi şirə tamaşah...
Çün şah məhəccərə yapuşdi,
Tamaşa edəndə yerə düşdi.
Şirzad o halda şahı gördi,
Kökdə onu dutmağa yügürdi.
Ol vəqtə xudanı eyləyüb yad
Durdu şahı gökdə tutdu Şirzad.
Çün yerə qoyub şahı səlamət,
Şah baxdı əcəb görüb əlamət.[1]

Belə bir mərdin zirək və qocaqlığına heyran olan şah tuba boylu, incə belli, vücudu həmahəng, ismətli, iffətli, gözü-qarası bir qızını Şirzada verərək ona təmtəraqlı, misli görünməyən möhtəşəm bir toy eyləyir:

Şah dedi: - Kimindür oğlan?
Dedilər: - Atası Xacə Şəban
Buyurdu şah dedi: - Ey xəlayiq,
Mənim ki, qızım var ona layiq.
Mən bir neçə gün təhiyyə gördüm,
Xurşudbanunu ona verdüm...[2]

Xurşudbanu, atasının onu kimə ərə verdiyini bilmədiyi üçün bərk dilxor olur. Əhvalatdan agah olan dayəsi məsələni öyrənib qıza müjdə verərək onu bərk sevindirir. Lakin bu ailənin sevinci çox qısa olur. Toy gecəsi naməlum bir əl qızı havadan qapıb qeybə çəkir. Bu müəmmalı hadisədən çıxış yolunu tapmaq üçün səltənətin ən müdrik bir liminə müraciət edirlər. Bu üləma insan qızının Şəkkak adlı bir div tərəfindən oğurlanıb Xəta mülkündə olan dağdakı mağarada gizlənildiyini bildirir. Şirzad bütün gücünü səfərbər edib çətinliklə dağı fəth edərək basılmaz heybətli varlığı məhv etməklə sevgilisini oradan xilas edir. Əsərdə Şirzad kimi mübariz, döyüşkən, davamlı bir gəncin simasında, eyni zamanda onun qəhrəmanlığına əsas zəmin yaradan fiziki yetkinlik, fiziki kamillik probleminin yüksək durumunu görürük. Şair oxucuya bir daha gedər-gəlməz yola səmt götürən Şirzadın turizm idmanının mahir bilicisi kimi uca bir zirvəni əsl atlet kimi fəth etməsi, səriştəli çapar kimi at çapması, ox-yay dartması, qılınc toqquşdurması, qurşaq tutub, yaxşı küşti yapışan, yumruq döyüşündə yenilməz bir pəhləvan kimi real təsvirini yaradır:

Gördü ki, o bir dağdır sərasər,
Dağun başı fələyə bərabər.

---

[1] Məhcur Şirvani. Qisseyi-Şirzad. Bakı, "Gənclik", 1985, səh.31.
[2] Yenə orada, səh.31.

Dağun təpəsində bir məğarə,
Nə getmək olur ona, nə çarə?
At işləmədi atın buraxdı,
Piyadə olub o, dağə çıxdı...[1]

Poemada Şirzadı son dərəcə qorxmaz bir ürək sahibi kimi təqdir edən şair, onun həm də yüksək fiziki hazırlığı sayəsində formalaşan özünə arxayınçılığını, inadkarlığını, qətiyyətliliyini və s. kimi yüksək iradi-əxlaqi keyfiyyətlərini də öndəmə gətirir. Əsərdə divin üstünə əliyalın gedən Şirzada, onun vahiməli rəqibinin sanki yazığı gəlir, həm də onu psixoloji cəhətdən sarsıtmaq niyyətilə ruhunu qırmaq istəyir. Odur ki, div Şirzada hərbə-zorba gəlməyə başlayır:

Sən buzar olmuşsan canından,
Başını qoparam ey bədəndən.
Şirzad yuxaruya baxdı gördü,
Div ani görüb ayağa durdu.
Qavarası dağdır, heybəti bəd,
Başı bədənində misli-günbəd.
Gözləri də qəm piyaləsüdür,
Ağzı bir ayə məcarasudür,
Hər bir qolu bir çinarə bənzər.
Qəddi-qaməti minarə bənzər
Çigninde var idi gürzi-giran,
Atdı həvalə onu səri-oğlan.[2]

Əsərdə div ilə Şirzad arasında gedən ölüm-dirim mübarizəsində gah divin, gah da sevgilisinin intiqamını, onun xilası üçün canfəşanlıq göstərən gəncin bütün fiziki imkanlarından ustalıqla istifadə edərək Şirzadın divi cəhənnəmə vasil etməsi səhnəsində oxuyuruq:

Dedi: - Al əlimdən, adəmizad,
Rədd eylədi gürzi onda Şirzad.
Şirzad atulub uzağə düşdi,
On arşun gürzi yerə keçdi.
Div xəyal edüb o dəmdə Şirzad,
Div onu görəndə etdi fəryad.
Div tənurə bağladı səmayə,
Şirzad özün atdı ol həvayə.
Ayağını dutdu eylə çəkdi,
Buraxub elə başı yerə dəkdi,
Cəhənnəmə div oldu vasil,
Ol dəmdə muradı oldu hasil.[3]

Şirzad göstərdiyi misilsiz igidlikdən sonra Xəta şəhərinə gə-

---

[1] Məhcur Şirvani. Qisseyi-Şirzad. Bakı, "Gənclik", 1985, səh.36-37.
[2] Yenə orada, səh.37.
[3] Yenə orada, səh.38.

lir, oradan Kabilə – öz ölkələrinə gəlməyə hazırlaşdığı zaman Şəmran şaha təsadüf edir. Şirzad şahın çox xoşuna gəlir və onu evinə qonaq çağırır. Söhbət əsnasında şah Şirzadın qolundakı ləldə nə yazıldığını soruşarkən o, heç bununla maraqlanmadığını bildirir. Lakin şah həmin yazını oxuyub məsələdən tam agah olur.

Beləliklə, Şəmran şah bu hadisəni Kabil şahına yazıb Xacə Şəbanı görmək istəyir. Xacə Şəban isə olan əhvalatı deməkdən imtina edir və Şirzadın həqiqi mənada onun öz doğma oğlu olduğunu söyləyir. Bu məsələdən sonra hər iki şah müharibəyə başlayırlar. Onlar mütəşəkkil ordu toplayıb Səmərqənd şəhərini mühasirəyə alırlar. Bu zaman Aqil vəzir özünü yetirib hadisəni tam təfərrüatı ilə nəql edir. Ordular hər tərəfdən şəhərə soxulur və həmin riyakar Kamil vəzir, qaçıb quyuda gizlənsə də, tapıb onu gəbərdirlər. Həmin kişilik, mərdlik mücəssəməsi kimi ad-san qazanan Şirzad isə öz ölkəsinin şahı elan olunur:

Ol dəm neçə min qoşun götürdi,
Şəhərün içinə özün yetürdi.
Hər kimsəni gördü, qırdı Şirzad,
Şəhr içinə düşdü dadü bidad.
Bir yandan da şahi-Şimran,
Nə piri qoyardı, nə də cavan.[1]

Şairin fikrincə, səadət və xoşbəxtlik uğrunda durmadan mübarizə aparmaq, hər şeydən əvvəl, onları oğrulardan, irticaçılardan və qəsbkarlardan qorumaq lazımdır. Rəzil, müstətid, hiyləgərlər aciz və nadanların fiziki və əqli cəhətdən cılız adamların səadətini oğurlaya bilərlər. Lakin həyati təcrübələr təsdiq edir ki, belə məsələdə haqq daim zəfər çalar, lakin qalibiyyət öz başına gəlməz, onu mübarizə ilə əldə etmək mümkündür. Bunun üçün Şirzad kimi əfsanəvi qəhrəmanlıq göstərmək, hər cür əzab və çətinliyə dözmək, ən ağır məşəqqət və məhrumiyyətlərə tab gətirmək üçün sarsılmaz iradəyə mətin xarakterə malik olmaq lazımdır.

Əsərdə qoşun götürərək qala içinə girib yağıları məğlub etməkdə cahangir sərkərdənin döyüş bacarığı və qabliyyəti də göstərilir. Şirzad hərbi vərdişlərə mükəmməl yiyələnmiş say-seçmə əsgərlərlə hadisənin əsas səbəbkarı Kamil vəzirin ardınca yollanmalarını və həmin xəbis vəzirin bu təqibdən necə bir müdhiş vəziyyətə düşdüyünü bildirir.

Şirzadın müzəffər yürüşü səmərəsiz qalmır. O, çox asanlıqla Kamil vəziri əsir tutub, qollarını qandallayıb tərəfdarları ilə birgə təslim edir:

Birdən gözü düşdü Şirzadə,
Gördü durub atlu, həm piyadə...
Əllərini onda bağladılar,
Sanki yürəgini dağladılar.
Gətürdilər onu bargahə,
Nəzəri yetüşdi padşahə...

---

[1] Məhcur Şirvani. Qisseyi-Şirzad. Bakı, "Gənclik", 1985, səh.47.

Şirzad buyurdu çəkdilər car,
Gülsün ordunu nüfuz ki, büsyar.[1]

Məhcur Şirvani Səmərqənd şəhərinin alınması uğrunda gedən amansız müharibədə Şirzadın göstərdiyi şücaətin canlı təsvirini verir. Şair ordu önündə şəhərin mühasirəyə alınması üçün yağılarla qanlı çarpışmadakı cəng-savaşını Şirzadın misilsiz sərdarlığı ilə əlaqələndirir. Şübhəsiz ki, yalnız gözəl ox-yay çəkən, qılınc çalıb nizə tullayan, at çapıb gürz oynadan, çevik güləşib cəld qaçan, əla hoppanan və s. kimi fiziki təmrinlərin, hərbi tapşırıqların yüksək səviyyədə icrası Şirzad kimi türk oğullarının döyüş meydanlarında uğurlu zəfərlərinə zəmin yarada bilərdi:

Şəhərdə nə vardı məşkər,
Təmamı yığıldı gəldi ləşkər.
Hökm eylədi onda şahi-Şimran,
Tez qırun oları vermün aman,
Cümləni qırdılar sərasər,
Şirzadə özündən verdi ləşkər,
Səksən min adam o şahi – Şimran,
Şirzadə onda verdi haman.
İgirmi min də verdi şahi-Zərrin,
Şirzadə onda verdi həmin.
Atası yerində etdilər şah,
Sikkə adına çalındı nagah...
Xəta şahı əzmi-Xəta oldu,
San mətləbi haqdan əta oldu.
Şirzad olub şahi-Səmərqənd,
Beş-ona olub hamı hünərmənd.[2]

Yaddan çıxarmamalıyıq ki, Məhcur Şirvani kimi söz ustalarının türk bahadırlarının şərə, zülmə, ədalətsizliyə və istibdada qarşı mübarizəsi, mərdliyə, alp-ərənliyə, humanist əməllərə baş əyən, habelə gənclərimizdə fiziki və zehni mədəniyyəti təbliğ edən cahanşümul əsərlər milli-mənəvi dəyərlərimizin misilsiz sərvətlərindəndir. Səciyyəvi haldır ki, bu səpgidə tədqiqatçısını gözləyən saysız ədəbi nümunələrimizin araşdırılması, övladlarımızın Vətən, torpaq, millət yolunda həqiqi vətənpərvərlər kimi tərbiyə olunub fədakarlıq göstərməsi üçün təpər, qeyrət və hünər formalaşdırar.

---

[1] Məhcur Şirvani. Qisseyi-Şirzad. Bakı, “Gənclik”, 1985, səh.48.
[2] Yenə orada, səh.49-50.

## СИМВОЛ ЛЮБВИ И ГЕРОИЗМА

**МОБИЛЬ АСЛАНЛЫ ГУНТЮРК**

**РЕЗЮМЕ**

В статье освещаются вопросы героизма и физического воспитания в произведении классика азербайджанской литературы XVIII века Махджура Ширвани «Гиссеи-Ширзад».

Автор освещает вышеназванные вопросы напримере борьбы героя произведения Ширзада и его единомышленников против сил зла и несправедливости. В связи с этим автор затрагивает вопросы использования различных видов спорта, военно-спортивного оборудования в деле формирования физического совершенствования огузских героев.